# Sumqayıt Dövlət Rəsm Qalereyası



1949-cu ildə şəhər statusu alan Sumqayıt sənaye zonası kimi formalaşdıqca, burada yaşayan əhalinin asudə vaxtlarının səmərəli təşkili və gənclərin yaradıcılıq potensialının üzə çıxarılması üçün mədəniyyət müəssisələrinin çoxalması zərurəti yarandı. Elə bu niyyətlə 1967-ci ildə Sumqayıt Sərgi salonu təşkil olundu. 1981-ci ilə qədər Respublika Rəsmlər qalereyasının filialı kimi fəaliyyət göstərən mədəniyyət müəssisəsi həmin il dekabrın 31-dən Nazirlər Kabinetinin 583 nömrəli sərəncamı ilə Sumqayıt Dövlət Rəsm Qalereyasına çevrildi.

Hansı adla fəaliyyət göstərməyindən asılı olmayaraq, Sumqayıt Dövlət Rəsm Qalereyası yarandığı gündən təsviri incəsənətin inkişafında və təbliğində, sənətkarların yaradıcılıq fəaliyyətinin genişlənməsində önəmli rol oynadı. Burada ilk bədii sərgi 1968-ci il aprelin 7-də açılmışdır. Sumqayıtlılar Xalq rəssamları Tahir Salahovun və Nadir Əbdürrəhmanovun rəng dünyalarının, bədii təxəyyüllərinin canlı izləyiciləri oldular. Sonrakı illərdə SSR Xalq rəssamı Mikayıl Abdullayevin, Əməkdar rəssam Hafiz Zeynalovun fərdi sərgiləri gerçəkləşdi. Habelə, o vaxtın sosialist respublikalarını təmsil edən rəssamların səyyar sərgiləri də Sumqayıtda xüsusi marağa səbəb oldu.

Milli ədəbiyyata və incəsənətə qayğısını heç zaman əsirgəməyən ulu öndər Heydər Əliyev bir neçə dəfə Sumqayıt Dövlət Rəsm Qalereyasına baş çəkib, qalereyanın zəngin fondu ilə tanış olmuş, yaradıcı insanların problemləri ilə maraqlanmışdır.



Rəsm Qalereyasında 1979-cu ildə Özbəkistan incəsənət günləri, 1982-ci ildə Ruminiyanın uşaq rəsm sərgisi, 1987-ci ildə Almaniya Demokratik Respublikası rəssamlarının sərgiləri, 1996-cı ildə İsrailin Yerusəlim şəhərindən gətirilmiş qravürlərdən ibarət sərgi sənət hadisəsinə çevrilmişdir.

2004-cü il, mayın 17-də Sumqayıt məktəblilərinin rəsmlərindən ibarət sərgi, mayın 26-da 3-cü respublika karikatura sərgisi, iyunun 20-də məcburi köçkün uşaqların rəsmlərindən ibarət sərgi, iyulun 3-də isə respublika peşəkar rəssamlarının əsərlərinin sərgisi keçirildi.

Almaniyanın Lüdviqshaven şəhəri ilə Sumqayıt şəhərinin qardaşlaşmasının 30 illiyi münasibəti ilə rəsm sərgisi, YUNESKO xətti ilə YUNESKO-Almaniya Dünya irsi abidələrinin fotosərgisi, habelə Azərbaycanın görkəmli rəssamlarının əsərlərindən ibarət sərgi də sumqayıtlılar tərəfindən maraqla qarşılandı.

2015-ci ilin sentyabrında Zakir Fərəcov Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı təyin olundu. Müasir şəhər infrastrukturunun yaradılması, abadlıq və quruculuq işlərinin geniş vüsət alması ilə bərabər, mədəniyyət sferasında da intibah mərhələsi yaşandı.

Qalereya bu müddət ərzində nəinki görkəmli Azərbaycan rəssamlarının əl işlərini, habelə ictimai-siyasi, dövlət xadimlərinin səhifələrindən zəngin foto-video arxivin xəzinəsinə çevrilib. Fəaliyyətə başladığı gündən öz zəngin fondu ilə incəsənət muzeyinin funksiyasını daşımaqla yanaşı, dəfələrlə rəsm müsabiqələrinin keçirilməsində, istedadlı gənclərin üzə çıxarılmasında, tematik mövzuda sərgilərin keçirilməsində, festivalların təşkilində böyük rol oynamaqdadır.

52 ildir Sumqayıt Dövlət Rəsm Qalereyası bədii-estetik dəyərlərə xidmət edən bir missiyanı layiqincə yerinə yetirir.

Qalereyanın direktoru, Azərbaycan Rəssamlar İttifaqının üzvü Ellada Həsənova ilə söhbət edərkən o, bildirdi ki, gənc istedadların üzə çıxmasında, onların bu sahədə layiqli yer tutmasında rəhbərlik etdiyi kollektiv əlindən gələni edir. Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar qalereyanın həyata keçirdiyi tədbirlər də diqqətəlayiqdir.

**Zabit CAVADOV,**
**"Respublika".**

Respublika.- 2019.- 28 noyabr.- S.3.